# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**“Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 631 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 631 nömrəli Fərmanının 5.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 2, maddə 126 (Cild I); 2024, № 1, maddə 122, № 5 (II kitab), maddə 583, № 9, maddə 1050; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 28 oktyabr tarixli 362 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4-cü hissə üzrə:

1.1.1. 4.11-ci bənddə “icbari tibbi sığortanın tətbiqini təmin edən quruma” sözləri “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyinə (bundan sonra - Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi)” sözləri ilə əvəz edilsin;

1.1.2. 4.12-ci bənddə “icbari tibbi sığortanın tətbiqini təmin edən qurumun” sözləri “Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyinin” sözləri ilə əvəz edilsin;

1.1.3. 4.14-cü bənddə “icbari tibbi sığortanın tətbiqini təmin edən quruma” sözləri “Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyinə” sözləri ilə əvəz edilsin;

1.2. 5-ci hissə üzrə:

1.2.1. adında “icbari tibbi sığortanın tətbiqini təmin edən qurumun” sözləri “Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyinin” sözləri ilə əvəz edilsin;

1.2.2. 5.1-ci bənddə “icbari tibbi sığortanın tətbiqini təmin edən qurum” sözləri “Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi” sözləri ilə əvəz edilsin;

1.2.3. 5.3-cü bəndin ikinci cümləsində (hər iki halda) “icbari tibbi sığortanın tətbiqini təmin edən qurum” sözləri “Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi” sözləri ilə və “orqanda (qurumda)” sözləri “qurumda” sözü ilə əvəz edilsin;

1.2.4. 5.4-cü bəndin ikinci cümləsində “icbari tibbi sığortanın tətbiqini təmin edən qurum” sözləri “Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 12 iyul tarixli 93 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 584 (Cild I); 2024, № 4, maddə 473) ilə təsdiq edilmiş “Dövlət büdcəsinin, büdcədənkənar dövlət fondları büdcələrinin tərtibi, icrası və icrasına nəzarət üzrə əməliyyatların əlaqələndirilməsinə dair Tədbirlər planı”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci hissə üzrə:

2.1.1. 1.1-ci bəndin birinci və ikinci abzaslarının “Tədbirlərin məzmunu” sütunundan “müvafiq olaraq” və “və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə” sözləri çıxarılsın;

2.1.2. 1.2-ci bəndin “İcraçılar” sütunundan “, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri çıxarılsın;

2.1.3. 1.3-cü bəndin “a”, “e” və “f” abzaslarının “İcraçılar” sütunundan “, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri çıxarılsın;

2.1.4. 1.4-cü bəndin “Tədbirlərin məzmunu” sütunundan “müvafiq olaraq” və “və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə” sözləri çıxarılsın;

2.1.5. 1.5-ci bəndin “İcraçılar” sütunundan “, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri çıxarılsın;

2.2. 3.2-ci bəndin, 4.1-ci bəndin “a” abzasının, 4.5-ci və 4.6-cı bəndlərin “İcraçılar” sütunlarından “, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 782 (Cild I); 2024, № 3, maddə 296; 2025, № 4 (II kitab), maddə 426, № 6, maddə 589, № 11, maddə 1096) ilə təsdiq edilmiş “Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası”nın 5.11-ci bəndində “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin” sözləri “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin” sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 62 (Cild I); 2024, № 4, maddə 473, № 5 (II kitab), maddə 583; 2025, № 8, maddə 804) ilə təsdiq edilmiş “Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması Qaydası”nın 3.2.4-cü yarımbəndində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci abzasda “Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu və İşsizlikdən sığorta fondu (rayon və şəhərlər də daxil olmaqla)” sözləri “Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu, Dövlət Məşğulluq Agentliyi və Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi” sözləri ilə, “öz” sözü “dövlət sosial müdafiə fondu, işsizlikdən sığorta fondu və icbari tibbi sığorta fondunun” sözləri ilə əvəz edilsin;

4.2. 3-cü abzas ləğv edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 11 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 68 (Cild I); 2024, № 7, maddə 925; 2025, № 10, maddə 967; 2026, № 5 (II kitab), maddə 484) ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.2-ci bənddə "Tibbi-Sosial Ekspertiza və Reabilitasiya" sözləri "Tibbi Sığorta və Ekspertiza" sözləri ilə əvəz edilsin;

5.2. 2.6-cı bənddən ", eləcə də şəxsin sosial müdafiə tədbirlərinə və reabilitasiya vasitələrinə ehtiyacının olmasına dair tibbi göstəriş" sözləri çıxarılsın;

5.3. həmin Qaydaya əlavə - "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Tibbi-sosial ekspert komissiyasının Qərarı" üzrə:

5.3.1. adında "Tibbi-Sosial Ekspertiza və Reabilitasiya" sözləri "Tibbi Sığorta və Ekspertiza" sözləri ilə əvəz edilsin;

5.3.2. 4.7-ci bənd ləğv edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 12 mart tarixli 78 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 3, maddə 280) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının kişi cinsli vətəndaşlarının ilkin hərbi qeydiyyata alınması Qaydası"nın 3.5-ci bəndindən ", İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin" sözləri çıxarılsın.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, " 20 " " noyabr " 2026-cı il

№ 389